# SÜLH DİLİ İLƏ DANIŞIN!

Nifrət nitqi
seçim deyil!



Avropa İttifaqi tərəfindən
birgə maliyyələşdirilir

AVROPA İTTİFAQI

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

Avropa Şurası tərəfindən
birgə maliyyələşdirilir
və icra edilir

**ENGLISH EDITION:**
**SPEAK PEACE! HATE SPEECH IS NOT AN OPTION!**

Bu broşür Yaxşı İdarəcilik ucun Tərəfdaşlığın  bir hissəsi olan "Azərbaycanda bərabərliyin təşviqi" layihəsi çərcivəsində yenilənmişdir.

Bu broşür Avropa İttifaqının maliyyə dəstəyi ilə, Avropa Şurası tərəfindən həyata keçirilən proqram çərçivəsində yenilənmiş və çap edilmişdir. Onun məzmunu yalnız müəllif(lər)in məsuliyyətindədir. Burada ifadə olunan fikirlər heç bir şəkildə Avropa İttifaqının və ya Avropa Şurasının rəsmi rəyini əks etdirən fikirlər kimi qəbul edilə bilməz.

Bu nəşrin heç bir hissəsi öncədən Kommunikasiyalar Direktorluğundan (F-67075 Strasbourg Cedex və ya publishing@coe.int) yazılı icazə alınmadan hər hansı formada və ya hər hansı üsulla, elektron və ya mexaniki vasitələrlə, o cümlədən surətçıxarma, səsyazma və yaxud hər hansı məlumat saxlama və ya axtarış sistemi vasitəsilə tərcümə edilə, çoxaldıla və ya ötürülə bilməz.

© Avropa Şurası. Sentyabr 2024-cü il. Bütün hüquqlar qorunur. Şərtlər daxilindəAvropa İttifaqına lisenziya verilmişdir.

# SÜLH DİLİ İLƏ DANIŞIN!

## Nifrət nitqi seçim deyil!

Avropa Şurası

**KİMSƏ SİZƏ VƏ YA ÖZÜNÜZƏ YAXIN HESAB ETDİYİNİZ İNSANLARA QARŞI KİMLİYİNİZƏ GÖRƏ NİFRƏT İFADƏ ETSƏYDİ, ÖZÜNÜZÜ NECƏ HİSS EDƏRDİNİZ? KİMİNSƏ BİZƏ MÜNASİBƏTDƏ KİM OLDUĞUMUZA GÖRƏ AYRI-SEÇKİLİK ETMƏK VƏ BİZİ ALÇALTMAQ HÜQUQU VARMI? MƏGƏR BİZİM HAMIMIZA HÖRMƏTLƏ YANAŞILMALI DEYİLMİ?**



Ayrı-ayrı insanların və ya insan qruplarının dinlərinə və ya əqidələrinə, dərilərinin rənginə, cinsinə, yaşına, əlilliyinə, cinsi oriyentasiyasına və ya hər hansı digər fərdi xüsusiyyətlərinə görə onlara qarşı ayrı-seçkilik edilməsi və ya zorakılıq törədilməsi çağırışı edildikdə, bu, çox güman ki, nifrət nitqidir.

## NİFRƏT YALNIZ SÖZLƏRDƏN İBARƏT DEYİL: O HƏM REAL HƏYATDA, HƏM DƏ VİRTUAL MƏKANDA MÖVCUDDUR!



Nifrət televiziyada, qəzetlərdə, ictimai toplantılar zamanı, məktəbdə, işdə və ya qonşuluqda, küçədə və yaxud ailələr arasında yayıla, həmçinin internet saytlarında, tətbiqlərdə, bloqlarda, sosial mediada və yaxud elektron məktublarda və ya elektron söhbətləşmələrdə təzahür edə bilər. Nifrət video və fotoşəkillərdə, mahnılarda, cizgi filmlərində, manipulyasiya edilmiş şəkillərdə və sair formalarda özünü büruzə verə bilər ki, beləliklə də, İnternet düşmənçilik dolu mühitə çevrilə bilər.

## NİFRƏT NİTQİ İNSAN HÜQUQLARINA TƏHDİDDİR



***"Bütün insanlar öz ləyaqətləri və hüquqları etibarilə azad və bərabər doğulurlar". Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 1-ci maddəsi***

Beynəlxalq insan hüquqları hüququ bütün insanlar üçün bərabərliyi və ayrı-seçkilikdən müdafiəni təmin edir. Ayrı-seçkiliyə yol verilmədən insan ləyaqətinin qorunması bizi nifrət nitqindən qoruyur. Bu o deməkdir ki, nifrət nitqi insan hüquqlarına təhdiddir və əksər ölkələrdə nifrət nitqinin ağır formaları qanun pozuntusudur.

## AYRI-SEÇKİLİK NƏDİR?

Bütün insanlar hüquqları baxımından bərabərdir. Ayrı-seçkilik bərabərliyin əksidir. Heç bir obyektiv və ağlabatan əsas olmadan kiməsə fərqli münasibət göstərildikdə, bu, ayrı-seçkilikdir. Nifrət nitqi insanları fərd və ya qrup olaraq kimliklərinə görə hədəfə alır. O, insanlarin, bir çox hallarda onsuz da bir sıra başqa cəhətdən həssas qrupa aid olan insanların şəxsi ləyaqətini sarsıdır, onları özgələşdirir və marginallaşdırır.

*Unutmayın: Bütün ayrı-seçkiliklər nifrət nitqindən qaynaqlanmır, lakin demək olar ki, bütün nifrət nitqləri bir insanın və ya bir qrup insanın başqalarından üstün olması fərziyyəsinə söykənir, ayrı-seçkiliyə əsaslanır.*



## İFADƏ AZADLIĞI VƏ NİFRƏT NİTQİ

***"Söz azadlığı ilə nifrət nitqi arasında incə bir fərq var. Söz azadlığı debatı təşviq edir, nifrət nitqi isə zorakılığa təhrik edir".***

***Nyuton Li, "Terrorizmlə mübarizə və kibertəhlükəsizlik: Ümumi məlumatlılığın artırılması"***

İfadə azadlığı dedikdə, hər kəsin azad şəkildə özünü ifadə etmək, məlumat və ideyaları ötürmək və ya əldə etmək hüququna malik olması faktını nəzərdə tuturuq. İfadə azadlığı insan hüququdur və o, məsələn, İnsan hüquqları haqqında Avropa Konvensiyasının 10-cu maddəsinə daxil edilib. Bu hüquq demokratik cəmiyyətin mühüm dayağıdır və hər bir fərdin öz potensialını reallaşdırması üçün vacibdir.

İfadə azadlığına tənqidi, incidici, təhqiramiz və ya ziddiyyətli hesab edilə bilən fikirləri ifadə etmək hüququ daxildir. Lakin ifadə azadlığı məhdudiyyətsiz hüquq deyil. Dövlətlər digər insanların hüquqlarını qorumaq üçün nifrəti yayan, nifrətə təhrik edən, təşviq edən və ya haqq qazandıran ifadə formalarına sanksiya tətbiq edə və ya onların qarşısını ala bilər. İnsanların öz fikirlərini ifadə etməsinə imkan vermək ilə bunun digər insanların hüquqlarını pozmamasını, yaxud iğtişaş və ya cinayətə səbəb olmamasını təmin etmək arasında balans olmalıdır.

# NİFRƏT NİTQİ HƏR HANSI QRUPA AİD DEYİL: HƏR KƏS NİFRƏT NİTQİNİN HƏDƏFİ OLA BİLƏR!



*"Dünyanın hansı hissəsindən olmağımızdan asılı olmayaraq, hamımız mahiyyət etibarilə eyni insan varlıqlarıyıq. Hamımız xoşbəxtlik axtarırıq və iztirablardan yan keçməyə çalışırıq. Bizim əsas insani ehtiyac və qayğılarımız eynidir".*
*Dalay Lama*

Hər kəs nifrət nitqinin hədəfi ola bilsə də, Avropada mütəmadi olaraq hədəfə alınan bir neçə qrup var, məsələn: LGBT, müsəlmanlar, yəhudi və ya digər dini qruplar, qadınlar, miqrantlar və etnik azlıqlar, Roma etnik qrupuna mənsub şəxslər, yoxsulluq içində yaşayan insanlar, əlilliyi olan şəxslər və s. Hədəfə alınan qruplar ölkədən ölkəyə fərqlənir. Nifrət nitqi fərdi qurban, hədəfə alınan qrup və digər həssas qruplar, eləcə də bütövlükdə icma üçün əhəmiyyətli və genişmiqyaslı nəticələrə səbəb olur. İnsanlar bəzən bir neçə xüsusiyyətlərinə görə, məsələn, qadın və miqrant olduqlarına görə hədəfə alına bilər.

Bir nümunəyə nəzər yetirək. COVID-19 pandemiyası yeni bir nifrət nitqi, ayrı-seçkilik və damğalama dalğasına səbəb oldu. Pandemiyanın başlanğıcında etnik çinli və ya asiyalı kimi qəbul edilən şəxslər, miqrantlar və əcnəbilər virusun yayılmasında günahlandırıldı. Pandemiya həmçinin yeni həssas qruplar yaratdı: koronavirusa yoluxmuş şəxslər sosial kənarlaşdırma, təcrid, damğalanma və nifrət nitqinə məruz qalırlar.



# MEDİADA ÇOX POPULYARLAŞAN NİFRƏT NİTQİNİN YAYILMASINA DAİR REAL HƏYATDAN NÜMUNƏLƏR: TƏSİR İMKANINA MALİK OLANLAR/ SİYASƏTÇİLƏR



*Bütöv bir insan qrupunu nifrətə sövq etmək onları başqa bir şəxsin və ya bir qrup insanın pis və ya təhlükəli olduğuna inandırmağı tələb edir.*
*"MÜASİR DÖVRDƏ NİFRƏT" plakatından*

Nifrət nitqi haqqında düşünəndə onun fərdlərə, qruplara və ya bütövlükdə cəmiyyətə təsiri və zərəri barədə düşünməliyik. Bu təsir ictimai müstəvidə güclənir, çünki ictimai xadimlər geniş auditoriya üzərində təsir imkanına malikdirlər. Elə bu da səbəblərdən biridir ki, onların üzərinə nifrət nitqindən və damğalayıcı dildən istifadə etməmək və başqalarının nifrət nitqindən istifadə etməsini pisləmək kimi vəzifə düşür.

Hər cür nifrət nitqinin müəyyən dərəcədə pis olduğu qəbul edilməlidir, amma daha da pis olan hallar var. Məsələn, belə nitqi sosial media platformalarında geniş auditoriyası olan insanlar ifadə etdikdə, o daha çox təhqiredici ola, daha çox insana təsir göstərə və potensial olaraq daha çox zərər verə bilər. Bu insanlar nifrət saçan dildən istifadə edərək daha çox baxış və izləyici qazana bilərlər.

# FƏALİYYƏT: PİSDƏN DAHA PİSƏ DOĞRU

Aşağıdakı nümunələrə nəzər salın. Sizin kontekstinizdə onlar tanışdırmı? Ölkənizdəki nifrət nitqinin bəzi nümunələri barədə düşünə bilərsinizmi? Hədəfə alınan qruplar kimlərdir? Nifrət nitqi hansı təsirə malikdir?

*"Sənədlərlə təsdiqlənən daha çox cinayət və zorlama hallarından savayı onların heç bir faydası yoxdur."*

**2015-ci ildə Avropada baş vermiş qaçqın böhranı haqqında onlayn məqaləyə dair şərh. 622 bəyənmə və daha çox baxış sayı.**

*"Hitler onları kifayət qədər öldürmədi!"*

**Bələdiyyə sədrinin şəhərindəki qaraçı əhalisi barədə açıqlaması.**

*"Mənfur xəstəlik olan homoseksuallığa qarşı mübarizə aparılmalı və ona son qoyulmalıdır."*

**300 üzvü olan Facebook qrupundan.**

*"Heç kim siz yəhudiləri ölkəmizə dəvət etməyib. Elə isə, niyə biz sizə görə özümüzü pis hiss etməliyik?"*

**Bloq yazısının altındakı şərh. Bloq yazısında Holokost qurbanlarının viran edilmiş abidəsi ilə bağlı kədər ifadə edilirdi.**

*"Qadınlar kişilərdən daha az qazanmalıdırlar, çünki onlar daha zəifdirlər və o qədər də ağıllı deyillər"*

**Avropa Parlamentinin üzvü.**



# NİFRƏT NİTQİ İLƏ MÜBARİZƏ NƏ ÜÇÜN VACİBDİR?

*"Sevgiyə sadiq qalmağa qərar verdim. Nifrət daşına bilməyəcək qədər böyük bir yükdür".*
*Martin Lüter Kinq (oğul)*

Nə üçün nifrət nitqinə qarşı mübarizə aparmalıyıq? Səbəblərdən bir neçəsi aşağıda qeyd olunub:

- **insan hüquqlarının ciddi şəkildə pozulmasının qarşısını almaq;**
- **dinc, inklüziv, demokratik və ədalətli cəmiyyətləri təşviq etmək;**
- **qadınlara münasibətdə zorakılığa qarşı mübarizəyə töhfə vermək;**
- **silahlı münaqişələrin, vəhşiliklərin və digər cinayətlərin qarşısını almaq.**

Nifrət nitqinə qarşı yalnız o əsil simasını göstərdiyi zaman deyil, kökündən mübarizə aparmaq lazımdır. Başqa sözlə, mübarizə cəmiyyətdəki müxtəlif qruplar arasındakı yanaşmalar və münasibətlər səviyyəsində aparılmalıdır. Nifrət irqçi münasibət, cinsiyyətçilik (seksizm) və mənfi stereotiplər üzərində inkişaf edir. Qarşısı alınmadıqda, o, cəmiyyətə nüfuz edə, stereotipləri gücləndirə və bəzi hallarda daha çox sui-istifadəyə, o cümlədən fiziki zorakılığa səbəb ola bilər. Bu halda  nifrət nitqi nifrət zəminində cinayətə çevrilə bilər. Soyqırımı və etnik təmizləmə kimi insan hüquqlarının kütləvi şəkildə pozulması ya nifrət nitqi ilə müşayiət olunur, ya da ondan sonra baş verir.

# FƏALİYYƏT: NİFRƏT NİTQİ NƏYƏ GƏTİRİB ÇIXARIR?

Bəzən nifrət nitqinin nəticələrini izah etmək və həmçinin demokratik dəyərləri dəstəkləmək və zorakılığın qarşısını almaq, onun müxtəlif formalarını tənzimləməyin nə üçün zəruri olduğunu göstərmək məqsədilə "Nifrət piramidasından" istifadə olunur. Düşünün: sizin kontekstdə nifrət nitqinin bu piramidada qeyd olunan hansısa formaları sizə tanışdırmı?




*Mənbə: Anti-Diffamasiya Liqası*

# NİFRƏT NİTQİNƏ QARŞI MÖVQE BİLDİRİN

*"Bəlkə özümüzü xarici görünüşümüz, hansı dinə etiqad etməyimiz və ya harada yaşamağımız ... əsasında deyil, nələrə dəyər verməyimiz əsasında qiymətləndirək? İnsanpərvərlik, xeyirxahlıq, fitrətimizdə olan qarşılıqlı bağlılıq duyğusu əsasında. Həm də, bu düşüncə əsasında qiymətləndirək ki, biz təkcə evimizin və planetimizin deyil, həm də bir-birimizin himayəçisiyik?."*
*Yasinda Ardern, Yeni Zelandiyanın baş naziri*



Hər kəs nifrətə qarşı mövqe bildirə bilər. Gəlin baxaq görək bu necə olur.

Nifrət nitqinə qarşı sevgi, şəfqət, mərhəmət və güc vasitəsilə mübarizə aparmaq onu tamamilə aradan qaldırmaya bilər, lakin biz insanları maarifləndirmək və dəstəkləmək, ədalətsizliyə qarşı çıxış etmək üçün nə qədər çox addım atsaq, bu dünya bir o qədər yaxşıya doğru dəyişəcək. Nifrət nitqinə kollektiv şəkildə birgə cavab versək, o, adi hala çevrilməyəcək!

# NİFRƏT NİTQİNƏ QARŞI MÜBARİZƏDƏ BİRLİKDƏ DAHA GÜCLÜYÜK



Bəzi insanlar icmaların bir araya gəlməsinə, bir-birini daha yaxşı tanımasına və hörmətlə birlikdə yaşamasına kömək etməklə nifrətin qarşısını alir. Digərləri nifrət nitqinə əks arqumentlər gətirməklə reaksiya verirlər. Bir başqaları gəncləri fərqliliklərə qarşı hörmətlə davranmağa öyrədirlər. Bəzi insanlar həmrəylik nümayiş etdirir və hücuma məruz qalan qruplara dəstək verirlər. Digərləri əks hekayələrlə ədalətsizliyə qarşı çıxış edirlər. Bəzi təşkilatlar nifrət nitqinin monitorinqini aparırlar. Bəzi insanlar nifrət nitqinə rast gəldikdə bununla bağlı məhkəməyə müraciət edirlər. Bəzi qurumlar nifrət nitqi yayan televiziyalara və hətta sosial şəbəkələrə cərimə tətbiq edə bilər. Bütün bu nümunələr göstərir ki, bir çox hallarda nifrət nitqi təzahür etmədən oncə də insanlar belə halların baş verməsinin qarşısını almaq üçün addımlar ata bilər!

Nifrət nitqinə qarşı mübarizə aparmaq üçün hamımız birlikdə çalışmalıyıq: siyasəti hazırlayanlar, vətəndaş cəmiyyəti, təhsil sahəsində çalışanlar, media, bu və ya digər dinə və əqidəyə mənsub olanlar, gənclər sektoru, polis və s.

Vətəndaş cəmiyyəti dözümsüzlüyün və ayrı-seçkiliyin bütün formalarının ilkin əlamətlərini müəyyən etməkdə və onlara qarşı mübarizədə çox zaman ön cəbhədə olur. Vətəndaş cəmiyyəti:

- **məsələn, qanunların təkmilləşdirilməsi yolu ilə hökumətlərin nifrət nitqi ilə mübarizə aparmasını təşviq edir;**
- **nifrət nitqi halları barədə məlumat verir;**
- **qurbanlar üçün tribuna rolunu oynayır və onlara hüquqi məsləhət və ya istiqamət verir;**
- **nifrət nitqi ilə mübarizə aparılması üçün insanları maarifləndirir, onların məlumatlılığını artırır və kampaniyalar aparır.**

# NİFRƏTƏ REAKSIYA GÖSTƏRMƏK

***"Aramızda fikir ayrılığı ola bilər, amma bununla belə bir-birimizi sevə bilərik, bu şərtlə ki, fikir ayrılığı mənim sıxışdırılmağımdan və insanlığımın və mövcud olmaq hüququmun inkar edilməsindən qaynaqlanmasın."***
***Ceyms Bolduin***




Unutmamalıyıq ki, insan hüquqları hər bir insan üçün ümumbəşəridir, bölünməzdir, bir-biri ilə əlaqəli, bir-birindən asılı və əvəzolunmazdır, hətta nifrət nitqindən istifadə edənlər və ya onu təbliğ edənlər üçün də! Elə hallar da olur ki, insanlar xüsusən internetdə nəyisə ölçüb-biçmədən söyləyir və ya özləri də istəmədən incikliyə səbəb olur, sonra isə peşman olurlar və ola bilsin ki, hətta sözlərini geri götürürlər. Bununla yanaşı, digər hallarda nifrət nitqi, məsələn, nifrət kampaniyalarının bir hissəsi kimi məqsədyönlü şəkildə yayılır.

Nifrət nitqinə qarşı hər dəfə reaksiya verərkən nəzərə almalıyıq ki, "nifrətin" təzahürləri müxtəlif cür ola bilər. Bu o deməkdir ki, bütün nifrət ifadələri müəyyən dərəcədə pis olsa da, nifrətin müəyyən bir təzahürü digərindən daha pis (daha təhqiredici, daha çox insana təsir edən, daha təhrikedici, potensial olaraq daha zərərli və s.) ola bilər. Nifrət nitqinə reaksiya verərkən ifadə edilən nifrətin dərəcəsindəki fərqlər nəzərə alınmalıdır.

Eyni zamanda, nifrət nitqinə qarşı mübarizə apararkən elə etməliyik ki, bizim arqumentlərimiz başqasının insan hüquqlarına xələl gətirməsin və başqalarının insan ləyaqətini alçaltmasın! Nifrətə nifrətlə cavab vermək problemi həll etməyəcək.

# GÜNDƏLİK HƏYATDA NİFRƏT NİTQİ İLƏ MÜBARİZƏ ÜÇÜN 10 FAYDALI STRATEGİYA

*“Hamımız şəfqət kimi aqressiya potensialı ilə də doğulmuşuq. Hansı meyilləri qəbul etməyimiz fərdlər, ailələr, icmalar və ümumiyyətlə mədəniyyətimiz tərəfindən düşünülmüş seçim tələb edir. Nifrətə qalib gəlməyin açarı təhsildir: evdə, məktəblərdə və icmada. ”*
*psixoloq Bernard Qolden*

Nifrət dolu mesajla qarşılaşdığınız zaman nə edə bilərsiniz? Hansı strategiyalar işə yarayır, hansılar yaramır? Siz necə reaksiya verirsiniz? Aşağıdakı bəzi faydalı addımlara nəzər salaq!

- ***MÖVQEYİNİZİ MÜƏYYƏNLƏŞDİRİN VƏ NİFRƏT NİTQİ İLƏ RAZILAŞMADIĞINIZI AÇIQ ŞƏKILDƏ BİLDİRİN:***

bu kimi ifadələrə dözümlü yanaşmayan insanların olduğunu göstərin. Səssiz qalmaq onlarla razılaşdığınız mənasına gələ bilər ki, bununla da nifrət yayılmağa davam edəcək... Xüsusilə nifrət nitqindən istifadə edən şəxsi tanıdığınız halda hər zaman niyə həmin şəxsin belə şeylər söylədiyini soruşa bilərsiniz. Sual vermək insanı ifadələri haqqında düşünməyə vadar edir.

- ***CAVAB VERƏRKƏN TƏHQİREDİCİ OLMAYAN DİLDƏN İSTİFADƏ EDİN VƏ İLKİN NİFRƏT DOLU MESAJIN TONU İLƏ EYNİ TƏRZDƏ CAVAB VERMƏYİN:***

intiqam almağı nə qədər çox istəsəniz də, intiqam almayın və hətta vəziyyət xüsusilə ağrılı olduqda belə, qeyri-münasib şəkildə cavab verməyin. İfadə edilmiş fikrin müəllifini deyil, məzmununu hədəfə alın!

- ***NİFRƏT NİTQİNİN HƏDƏFİNDƏ OLANLARA ŞƏFQƏT NÜMAYİŞ ETDİRİN:***

nifrət nitqinin kobud və təhqiramiz olduğunu düşündüyünüzü göstərin. Qurbana dəstək olmaqla yanaşı, mesajınız onları nifrəti qəbul etməli olmadıqlarını anlamağa və bu barədə səlahiyyətli orqanlara məlumat verməyə təşviq edə bilər.

- ***YANLIŞ MƏLUMATLARI DÜZƏLDİN:***

nə vaxt düzgün məlumat əlavə etmək üçün imkanınız olsa, bunu edin və saxta iddiaların yanlışlığını faktlarla sübut edin! Bu, nifrət ifadə edən şəxsi inandırmaya bilər, amma siz digər dinləyiciləri və ya oxucuları inandıra bilərsiniz.

- ***ZƏRURƏT OLARSA, İFADƏLƏRİ SİLİN:***

birbaşa cavab verməməyə üstünlük verirsinizsə, hər zaman internetdəki paylaşımın məzmun etibarilə nifrət nitqi olduğu barədə məlumat verə və ya həmin paylaşımı xüsusilə öz sosial şəbəkənizdən və ya səhifənizdən silə bilərsiniz. Onlayn platformaya bu barədə məlumat verin (sosial media, forumlar). Onlar bu barədə bilməsələr, heç nə edə bilməzlər. Nifrət mesajını yenidən paylaşmaqdan çəkinin, çünki bununla siz onu yalnız daha populyar və daha çox insan tərəfindən görünən edəcəksiniz.

- ***SONSUZ MÜZAKİRƏLƏRDƏ VAXT İTİRMƏYİN:***

etirazınızı və narazılığınızı bildirin və mülayim ifadələrdən istifadə edin. Elə edin ki, cavabınız qısa, amma təsirli olsun.

- ***MÜXTƏLİFLİK, BƏRABƏRLİK, İNKLÜZİVLİK HAQQINDA MƏLUMAT ƏLDƏ EDİN VƏ DANIŞIN:***

bu mövzularda nə qədər çox insan məlumatlandırılsa, nifrət nitqinin qarşısını bir o qədər çox ala bilərik.

- ***İNSAN HÜQUQLARI UĞRUNDA ÇALIŞAN KÖNÜLLÜ VƏ FƏAL OLUN:***

insan hüquqlarını təbliğ edən onlayn icmalara və ya təşkilatlara qoşulun. Sizin yaxınlığınızda inklüzivlik, demokratik dəyərlər və sülhün təbliği üzrə və ya irqçilik, cinsiyyətçilik və ayrı-seçkiliyə qarşı mübarizə sahəsində çalışan təşkilatların olub-olmadığını yoxlayın və onların səylərinə qoşulun.

- ***SƏLAHİYYƏTLİ ORQANLARA NİFRƏT NİTQİ BARƏDƏ MƏLUMAT VERİN:***

yuxarıda qeyd olunan addımlardan hər hansı birinin faydalı olmadığı halda və təhlükəsizliyiniz və həyatınız üçün narahatlıq hiss etdiyiniz təqdirdə, nifrət nitqi barədə səlahiyyətli orqanlara məlumat verin.

- ***ÜMİDİNİZİ İTİRMƏYİN:***

nifrətin kökləri dərin və güclüdür və nə qədər çalışsanız da, nifrət nitqi riski mövcuddur. Önəmli olan hərəkət etmək və eyni məqsəd uğrunda çalışan digərlərinə qoşulmaqdır.

# AVROPA ŞURASI NİFRƏT NİTQİNƏ QARŞI MÜBARIZƏ İSTİQAMƏTINDƏ HANSI İŞLƏRİ GÖRÜR

*"Avropa Şurasının məqsədi öz üzvləri arasında daha sıx birliyə nail olmaqdır..."*
*Avropa Şurasının Nizamnaməsi, 1-ci maddə*

1949-cu ildə təsis edilmiş Avropa Şurasına 46 üzv ölkə daxildir. O, İnsan hüquqları haqqında Avropa Konvensiyasına və digər insan hüquqları konvensiyalarına və sənədlərinə əsaslanan ümumi və demokratik prinsipləri təbliğ edir.

Nifrət nitqinə gəldikdə, Avropa Şurası:

- insan hüquqları standartlarını qəbul etmiş və onun İnsan Hüquqları üzrə Avropa Məhkəməsi nifrət nitqi ilə bağlı bir sıra işlərə baxmış və bu mövzuda bütün üzv ölkələr üçün etibarlı məhkəmə təcrübəsi yaratmışdır;
- onun müxtəlif qurumları ölkələrə nifrət nitqi ilə mübarizə aparmaq və onun qurbanlarını dəstəkləmək üçün tövsiyələr və təlimatlar qəbul etmişdir; o, nifrət nitqinin anlayışını artıq 1997-ci ildə qəbul etmiş və 2022-ci ildə Nifrət nitqinə qarşı mübarizəyə dair CM/Rec(2022)16 saylı Tövsiyəsində yenilənmiş anlayışı qəbul etmişdir;
- üzv dövlətlərdə irqçilik, ksenofobiya, antisemitizm, dözümsüzlük və ayrı-seçkilik problemlərini İrqçilik və Dözümsüzlüyə qarşı Avropa Komissiyasının (ECRI) işi vasitəsilə monitorinq edir. ECRI Nifrət nitqinə qarşı mübarizə üzrə 15 saylı Ümumi Siyasət Tövsiyəsini qəbul etmişdir, bu sənəddə üzv dövlətlərə bu problemə qarşı necə mübarizə aparmağa dair təlimatlar verilir;
- bu sahədə siyasətin işlənib hazırlanmasını dəstəkləyir və milli təsisatlar və vətəndaş cəmiyyəti üçün nifrət nitqinə qarşı mübarizə üzrə təlimlər keçirir, məsələn, "Nifrət Nitqinə Yox" Kampaniyası və Əməkdaşlıq Bölməsi çərçivəsində iş aparır;
- Gənclər kampaniyası olan "Nifrət Nitqinə Yox" Hərəkatı kimi nifrət nitqi ilə mübarizə kampaniyaları və maarifləndirici fəaliyyətlər təşkil edir;
- insan hüquqları üzrə maarifləndirmə yolu

*Aİ və Avropa Şurası "Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq" və "Qərbi Balkanlar və Türkiyə üçün Horizontal Mexanizm" kimi birgə əməkdaşlıq proqramları vasitəsilə ayrı-seçkilik və nifrət nitqi ilə mübarizə sahəsində islahatların aparılmasında benefisiarlara yardım göstərir; institusional potensialın artırılması və zərərçəkənlərin hüquqlarının müdafiəsi və geniş ictimaiyyətin bu mövzuda məlumatlılığının artırılmasına dəstək verir.*

ilə nifrət nitqinə qarşı əks və alternativ hekayələr vasitəsi ilə gənclər tərəfindən nifrət nitqini müəyyən etmək və onunla mübarizə aparmaq sahəsində maarifləndiriməni həyata keçirən təhsil işçilərinə dəstək olmaq məqsədilə “Əlfəcinlər” və “Biz bacarırıq” kimi maarifləndirici vəsaitlər hazırlayır;

- təhsil, idman, Roma etnik qrupuna mənsub olan şəxslərin hüquqları, gender bərabərliyi, cinsi oriyentasiya və gender gender kimliyi, media və internet idarəçliyi, məşğulluq, cinsiyyətçi (seksist) nifrət nitqi ilə mübarizə və s. kimi müxtəlif sahələrdə ayrı-seçkiliyə qarşı mübarizə üzrə iş aparır.

Avropa Şurasının gənclər kampaniyası olan "Nifrət Nitqinə Yox" Hərəkatı Avropa miqyaslı kampaniya olmuşdur və bu kampaniya ərzində bir çox insanlar və təşkilatlar gənclər üçün və gənclərlə birlikdə nifrət nitqi ilə mübarizə və insan hüquqlarının onlayn təşviqi məqsədilə maarifləndirici fəaliyyətlər həyata keçirmiş, nifrətə qarşı necə mübarizə aparmaq, sosial media subyektlərinə və ya səlahiyyətli orqanlara nifrət nitqi barədə necə məlumat vermək mövzusunda hüquq müdafiəçiləri ilə müzakirələr təşkil etmiş, habelə insanları nifrət nitqinin hədəfində olan qruplar haqqında məlumatlandırmaq üçün tematik onlayn fəaliyyət günləri təşkil etmişlər. Kampaniyada iştirak etmiş bir çox təşkilatlar, məsələn, "Nifrət Nitqinə Yox" Şəbəkəsi fəaliyyətlərini davam etdirirlər.

Nifrət nitqi ilə necə mübarizə aparmağa dair ilhamverici ideyalar axtarırsınız? Aşağıdakı bağlantı vasitəsilə bir neçə nümunəyə nəzər sala bilərsiniz:
www.coe.int/en/web/no-hate-campaign

**Faydalı bağlantılar:**
Avropa Şurasının veb-səhifəsi:
www.coe.int

İrqçiliyə və Dözümsüzlüyə qarşı Avropa Komissiyası:
www.coe.int/ecri

Avropa Şurasının İnklüzivlik və Ayrı-seçkiliyə qarşı Mübarizə Bölməsi:
www.coe.int/en/inclusion-and-antidiscrimination

*Bu broşürdə nifrət nitqi konsepsiyaları, onun təzahürləri, insan hüquqları və demokratiya üçün riskləri nəzərdən keçirilir. Bu broşür nifrət nitqi fenomenini daha yaxşı başa düşmək ehtiyacını hiss edən və nifrət nitqi ilə mübarizə aparmaq üçün nəsə etmək istəyən hər bir şəxs üçün, həmçinin vətəndaş cəmiyyəti təşkilatları və digərləri üçün hazırlanmışdır. Broşurdə nifrət nitqi ilə bağlı izahlar, habelə nifrət nitqinin qarşısını almaq və onunla mübarizə aparmaq üçün atılmalı addımlar barədə təkliflər*

*Bu broşür Avropa İttifaqının maliyyə dəstəyi ilə Avropa Şurası tərəfindən icra olunan proqram çərçivəsində yenilənib və çap olunub. Onun məzmunu yalnız müəlliflərin məsuliyyətinə aiddir. Burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqı və ya Avropa Şurasının rəsmi rəyini əks etdirən fikirlər kimi qəbul edil bilməz.*

**Avropa İttifaqının üzv dövlətləri öz biliklərini, resurslarını və talelərini birləşdirmək qərarına gəlmişlər. Onlar birlikdə mədəni müxtəlifliyi, tolerantlığı və fərdi azadlıqları qoruyub saxlamaqla sabitlik, demokratiya və davamlı inkişaf zonası qurmuşlar. Avropa İttifaqı öz nailiyyətlərini və dəyərlərini onun hüdudlarından kənarda olan ölkələr və xalqlarla bölüşməyə sadiqdir.**

**www.europa.eu**

**Avropa Şurası qitənin aparıcı insan hüquqları təşkilatıdır. O, Avropa İttifaqının bütün üzvləri də daxil olmaqla 46 üzv dövlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqlarını, demokratiyanı və qanunun aliliyini qorumaq üçün nəzərdə tutulmuş İnsan hüquqları haqqında Avropa Konvensiyasını imzalamışlar. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə yerinə yetirilməsinə nəzarət edir.**

**www.coe.int**

Avropa İttifaqi tərəfindən birgə maliyyələşdirilir

AVROPA İTTİFAQI

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

Avropa Şurası tərəfindən birgə maliyyələşdirilir və icra edilir